Ədalət.- 2020.- 13 may. S. 5.



# "Jurnalist təkcə öz ömrünü yaşamır..."



*Hüseyn Əsgərov*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

**…Ömür axıb gedən zamanın bizə düşən kiçik bir hissəsi, çətin, əzablı yollardan, xoş və gərgin günlərin təəssüratından, xatirələr və arzularla qovuşan anlardan bütövləşmiş vaxt ölçüsüdür. İndi ömrünün 70-ci ilinin zirvəsindən baxanda aşağılarda, çox uzaqlarda sərhədləri o qədər də aydın olmayan uşaqlıq illərinin, zəhmətlə dolu hadisələrin və çapıqlaşmış yaraların izləri ilə yanaşı, qırmızı, işıq saçan cizgilər də görünür. Bu cizgilər Şərur Rayon İcra Hakimiyyətinin orqanı olan "Şərurun səsi" qəzetinin redaktoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin və Naxçıvan Mətbuat Şurası idarə heyətinin üzvü Elman Məmmədovun keçdiyi tale yolundan xəbər verir. Bu elə bir yoldur ki, istəsən də, istəməsən də o yolu getməli, zaman adlı sarvanın sığalını da, qırmancını da dadmalısan. Amma elə yaşamalısan ki, bu kavran sərt qayalara, vahiməli uçurumlara dirənəndə cismani ömrün yarıda qırılıb qalmalı olsa da, şərəf və ləyaqətlə bu həyatı başa vurub yaddaşlara, ürəklərə, ruhlara köç edə biləsən.**

Məndə bu qənaət birdən-birə, elə-belə yaranmayıb. Jurnalist dostum Elman Məmmədovla yarım əsrlik tanışlığımızdan yaddaşıma zərrə-zərrə, qətrə-qətrə həkk olub.

**-Kimdir Elman müəllim? Ömrü haradan başlayıb harada davam edir?**

**- Adi, bir azərbaycanlı. Ziyalı. Sinəsi Vətənin bütövlüyü və azadlığı üçün döyünən bir vətəndaş. Dörd övladını içinin odu, yanğısı və sevgisi ilə süsləyən ailə başçısı. Üstəgəl, peşəsinin vurğunu - sözün başına ip salıb belədən-belə, elədən-elə sürütləyən, sözü sözlə oynadıb, sözlə dilləndirən və dinləndirən, çörəyi sözdən çıxan, amma ona çörək ağacı kimi baxmayan bir jurnalist. Bir də üstəgəl, yanımcıl insan-dərdlərinə sarılıb qovrulan anda belə, darda olana ilk köməyə tələsən, qarşısındakının kədərini fikir yox, ürək süzgəcindən keçirən qonşu-qohum-tanış-həmkar. Sevdiyi peşəsinə məhəbbətin, bəzən sevdiyi insandan da bir addım önə keçməsinə göz yuman qələm sahibi.**

Uzun illər mətbuatda çoxlarına örnək olası fəaliyyəti ilə seçilən Elman müəllim də məhz o insanlardandır ki, həmişə vicdanının səsinə çəkinmədən, cəsarətlə səs verib. Nə şan-şöhrətə can atıb, nə ad-san dalınca qaçıb, nə də var-dövlət üçün özünü oda-közə vurub. Nəyi varsa, o da sözüdür, sənətidir. Qazandıqları da - istər maddi, istərsə də mənəvi mənada - sözünün dəyərinə, sənətinin nüfuzuna məhz zərgər dəqiqliyi ilə yanaşmasının bəhrəsidir.

### *Elman Telman oğlu Məmmədov*

70 il bundan əvvəl - 1950-ci il may ayının 15-də Şərur rayonunun Düdəngə kəndində doğulub. 1968-ci ildə rayon qəzetinin mətbəəsində mürəttib köməkçisi kimi çalışıb, eyni zamanda, redaksiyanın tapşırığı ilə ara-sıra xəbər axtarışına çıxıb.



1969-cu ildə BDU-nun jurnalistika fakültəsinə qəbul olunub. Universitet illərində Nurəddin Babayev, Nəsir İmanquliyev, Əliş Nəbili, Şirməmməd Hüseynov, Bəxtiyar Vahabzadə, Famil Mefdi, Nəriman Zeynalov, Cahangir Məmmədli…kimi tanınmış ziyalılardan aldığı dərs həyatda həmişə gərəyi olub, yoluna işıq salıb. 1974-cü ildə rayon qəzetində müxbir işləyib, bir il sonra şöbə müdiri vəzifəsinə irəli çəkilib. Ağa Ağayev, Hüseyn Əbdülhüseynov, Cəfər Məmmədov, Cəfər Əliyev, Mikayıl Əliyev, Çingiz Nağıyev, İslam Əliyev, Mirhüseyn Seyidov, Yaşar Ələkbərov kimi peşəkarlarla çiyin-çiyinə işləyib.

***Şəxsən tanıdığım, əməkdaşlıq etdiyim bu ziyalıların qələmindən çıxan yazılar hesabına o zamankı "İşıqlı yol" qəzeti respublika miqyasında ən yaxşı rayon qəzetlərindən sayılırdı. Bunun bir səbəbi də qəzetdə tənqidi yazılara, xüsusən felyetonlara geniş yer verilməsi ilə bağlıydı. Mübariz janrda yazanların sırasında E.Məmmədovun xüsusi yeri vardı. Gördüyü haqsızlıqları, narazılıqları yazılarında mütləq əks etdirirdi. Hətta onun yazıları büro iclaslarında oxunur, kimi tənqid edirdisə, o adam töhmət alır, işdən qovulurdu. Çünki müəllif həmişə yalnız fakta əsaslanır, yalan, qeyri-dəqiq heç nə yazmırdı.***

Bəlkə də mətbuata çox bağlılığının nəticəsi idi ki, sonradan nə qədər şərurlu gənc jurnalist olmaq arzusuna düşmüşdü. Onlardan biri də mən idim. Jurnalistikada təhsil aldığım illərdə qəzetin "Mirzəcəlil sayağı" rubrikası altında onlarla yazım dərc olundu. Felyetonları birgə yazsaq da "qəhrəmanlarımız"ın təhdidlərinə, hədə-qorxularına Elman cavab verməli olurdu. Minimum söz, maksimum məna. Onun tələbləri belə idi. Bir dəfə Rayon Mərkəzi Xəstəxanasının baş həkiminin rüşvətxorluğundan bəhs edən "Xəstə çox şey dilər, lakin ona qismət olmaz" adlı felyetonda rüşvətxor obrazı yaratmağa cəhd elədiyim bir səhifənin üstündən xətt çəkib belə bir cümlə ilə əvəzlədi: "Baş həkim yumruğunu stola elə çırpdı ki, küncdəki ayağı bağlı xoruz dik atıldı." Vəssalam! Təşbehsiz, məcazsız, istiarəsiz, təkrirsiz, mübaliğəsiz, epitetsiz, litotasız, metanomiyasız və metaforasız da obraz göz önündə canlanır.

### *"Üçüncü toy" felyetonu*

(19.1.85) isə ailəsi ola-ola toyda vurulduğu bir xanımın ardınca Xanlar rayonuna səfər edən məmurun sərgüzəştlərindən bəhs edirdi. Həmin felyetona Elman belə bir bənd əlavə etmişdi:

*Mən aşiqəm Xanlara*
*Xanlardakı canlara*
*Jiqulimi qurban verrəm*
*Sənnən keçən anlara*

"Bilalın eşq sərgüzəştləri" (3.9.85) felyetonda isə qəhrəman üç uğursuz evlilik-



dən sonra Xok kəndinə yollanır. Onun pərişan halını görənlər soruşur:

*Qəm toxumun əkə-əkə,*
*Nədən düşdün sən bu kökə?*
*Söylə görüm bizim Xökə*
*Gəlişin xeyirmi, oğlan?*

Altmış beş yaşlı aşiq "oğlan" sözündən cuşa gələrək deyir:

*Çəkdi o qız məşqə məni*
*Saldı yaman eşqə məni*
*Eləyib lap peşkə məni*
*Gəlişim xeyirdi, oğlan.*

Bayatı, tapmaca, sual-cavab və digər formalardan əksər felyetonlarda satirik manera kimi istifadə edirdik. Məsələn, "Mirzə Cəlil sayağı" rubrikasında "O nədir ki…" (17.4.77) tənqidi yazıda xəbər alırdıq:

*Aşıq eldən yuxarı*
*Şana teldən yuxarı*
*Gölməçələr harada*
*Çıxıb beldən yuxarı?*
*Molla Nəsrəddin cavab verirdi:*
*Aşıq eldən yuxarı*
*Şana teldən yuxarı*
*Kəndarası yollarda*
*Gölmə beldən yuxarı.*

Yaxud bir tapmaca:
**-O nədir ki, Məmmədəli deşikdə**
**Qulaqları eşikdə?**

Cavab "Çimənlər" deyilən ərazidə istifadəsiz qalan armaturlardır ki, yarıya kimi torpağa quyulanıb. Amma aid təşkilatların gözünə görünmək üçün yarısı torpaqdan yuxarı, eşikdə qalıb.

"Şəhriyar bayatıları"nda (İşıqli yol"-27.9.75) öz-özümüzə təskinlik verirdik:

*Şəhriyarlı bacılar*
*Bağda güllər saçılar*
*İnşallah bir gün gələr*
*Kitabxana açılar.*
*Əzizim cuşa gələr*
*Həftələr qoşa gələr*
*Yarımçıq qalmış obyekt*
*İnşallah başa gələr.*

"İşıqlı yol"un 31 dekabr 1978-ci il nömrəsində Elman bayatı "çəkirdi":

*Qarabağda bağ olmaz*
*Qara salxım ağ olmaz*
*Xalq malını yeyənin*
*Ürəyində yağ olmaz.*
*Sədr,tez ol, atdı gəl*
*İl axıra çatdı gəl*
*Ət planı dolmadı*
*Süd planı batdı gəl.*

Həmin nömrədə ayrıca verilən"Bayatılar" da E.Məmmədova məxsus idi:

*Əzizinəm Salyana*
*Dara zülfün sal yana*
*Necəsən bir ah çəkəm,*
*Köhnə ildə yatanlar*
*Təzə ildə oyana.*

E.Məmmədov "Qəsəbəmiz təmiz olmalıdır"( "İşıqlı yol"-14.9.78) adlı replikada yazırdı: "Pendir-süd məntəqəsinin müdiri söhbət əsnasında burada sanitariya-gigiyena işlərinin yüksək səviyyədə qurulduğunu bildirdi.

O, üst-başına daraşan milçəkləri güclə qovaraq dedi ki, məntəqədə lazımi səliqə-sahman, təmizlik yaradılması üçün əlindən gələni etmişdir”.

### *Elmanla müştərək felyetonlarımızdan*

bəzilərini indi də əziz xatirə kimi saxlayıram. Onlardan "Döyənək çox pis şeydir" ("İşıqlı yol"-23.10.77), "Döşə gəlsin"("Sovet kəndi"-15.6.78), "Gecə konserti" ("Sovet kəndi"-8.2.79), "Piyada səfər" ("Şərq qapısı"-1.6.82), "Özü əngəl içində" ("İşıqlı yol"-10.6.86), "Qoğal" ("İşıqlı yol"-24.8.82), "Mən niyə dərsdən qaçdım"? ("İşıqlı yol"-3.4.79), "Şeytan" ("İşıqlı yol"-18.2.86), "Cadu-piti" (28.5.88) "Tilsim" ("Kirpi" jurnalı-28.5.88) və başqa felyeton və replikalar indi də öz bədii məziyyətlərini saxlamaqdadır. Bununla belə, "İşıqlı yol" yüksəliş dövrünü 90-cı illərdə yaşadı və dövrün məlum dağıdıcı prosesləri ilə üzləşdi. Maliyyə imkanlarının məhdudluğu üzündən bağlandı. O vaxtkı rayon rəhbərliyi "Bu ağır vəziyyətdə bizə qəzet lazım deyil",- deyə yaxasını kənara çəkərək, mətbu orqanı taleyin ümidinə buraxdılar.

### *Belə bir vaxtda*



Elman Məmmədovun "Mirzə Namlem M " imzası ilə hər gün kiçik formatda, 8-12 səhifə həcmində bülletenin dərcinə başlanıldı. Bülleten qeydiyyatdan keçməsə də kəndbəkənd, səngərbəsəngər əl-əl gəzirdi. Burada Sədərəkdə və rayonun digər sərhəd bölgələrində erməni təcavüzkarları ilə gedən döyüşlər barədə məlumat verilirdi. Rayon rəhbərliyinin təqib və təhdidləri azmış kimi bir gün cəbhəçilər də redaksiyanın qapısını mismarladılar. Mismarı vuran "Şərur qönçələri"nin yetirməsi səbəbi belə izah etdi ki, bu qəzet sovet hökumətinə, partnomenklaturaya xidmət edib, rayon partiya komitəsinin orqanı olub. Boz qurdun, Nəbinin, Koroğlunun nəvələrinə belə qəzet lazım deyil. Boz qurdun öz orqanı olacaq.

**Elman müəllim danışır ki, bəlkə də başqalarının bu hərəkəti mənə yer eləməzdi, amma çətin günlərində evimə aparıb qonaq elədiyim, süfrəmin başında oturtduğum bu şair təbiətli adam qapıya mismar çalanda, sanırdım ki, qəlbimə çalır, bıçağı kürəyimə saplayır.**

**(ardı növbəti sayımızda)**